Azərbaycan poeziyası

# MOLLA VƏLİ VİDADİ

# SEÇMƏ ŞEİRLƏR

QANUN NƏŞRİYYATI

Molla Vəli Vidadinin 18-ci əsr Azərbaycan poeziyasında xüsusi yeri vardır. Onun qoşmaları, qəzəlləri, müxəmməsləri öz bədii dəyəri ilə seçilir. Şairin yaradıcılığı üç əsrdən artıqdır ki, milli ədəbiyyatımızın klassikası səviyyəsinə yüksələrək yaşayır. Vidadi öz savadı, dünyagörüşü və nümunəvi həyat tərzi ilə dövrünün ziyalılarına örnək olub. Başqa bir klassik şairimizin – Molla Pənah Vaqifin yaxın dostu olan Vidadi həm də onunla yazışmış, deyişmişdir.

"Qanun" nəşriyyatı "Azərbaycan poeziyasından seçmə şeirlər" layihəsində Vidadinin şeirlərini təqdim edir. Kitabın oxucu ruhunu oxşayacağına inanırıq.

**Molla Vəli Vidadi Azərbaycan poeziyası seçmə şeirləri**
Bakı, Qanun nəşriyyatı, 2023, 120 səh.

Ölçü: 120x185 mm
Cild: qalın
Çapa imzalandı: 14.02.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərtib edən və redaktor: | Əyyub Qiyas (Qi Or El) |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor və mətn dizaynı: | Asifə Əfəndi |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

İSBN 978-9952-38-526-7

© Qanun nəşriyyatı, 2023
Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

# Mündəricat

Xalq ruhu, xalq həyatı.........................................................8
**QOŞMALAR, GƏRAYLILAR, BAYATILAR............ 13**
Qatar-qatar olub qalxıb havaya ...........................................14
Dəli könül, gəl əylənmə qürbətdə ...............................15
Ey həmdəmim, gəl ki, gedər can durmaz............................17
Aylar, illər həsrətini çəkərdim ...............................................18
Ey həmdəmim səni qanə qərq eylər ....................................19
Könül həsrət can müntəzir, göz yolda ................................20
Ey məni qınayan, ağlama, deyib ..........................................21
Seyri-gülşən etsən, ey gülüzarım ........................................22
Ay ağalar, bir nigarın oduna .................................................23
Çərxi-fələk zülmü ziyad eyləmiş .........................................24
Yenə yad eylədim keçən günləri .........................................25
Ey fələk, əlindən dad etməyimmi ........................................26
Gecə-gündüz oda düşüb yanaram .......................................27
Yenə bir leylivəş yarə dil verdik ...........................................28
Xəstə düşdüm, gələn yoxdur üstümə .................................29
Ey dəhani şəkər, ləbləri badə! ..............................................31

Səba, əhvalımı bir-bir ....................................................................32
Könül səbrü qərar etməz ..................................................................33
Vaqif, nə tez sənəmlərdən əl çəkdin! ..................................35
Bayatılar .......................................................................................................38
**QƏZƏL VƏ MÜXƏMMƏSLƏR................................... 39**
Hər səhər bad əsər, arizi-canana dəyər ..................................40
Bilirsiz, vaqifa, kim şövqimiz didarə çoxdandır................41
Sən tək, ey gül, demə gül gülzarə gəlmiş, gəlməmiş .........42
Necə göz sən tək gözəl dünyada görmüş, görməmiş! .....43
Sanma, ey dust, sən tək afət canə olmuş, olmamış! ........44
Nigara, zövqi-hüsnündən ki, hərdəm ittifaq artar ............45
Ey səba, gəl bir xəbər ver canə, canan xandadır? ..............46
Mənə bir şuxü şirin dilrüba bir pirəhən tikmiş .................47
Gərçi yüz min aləm içrə var yarından cüda .......................48
Deyibsiz yəni gəlləm, gəldi bir belə xəbər, Vaqif! ............49
Tutma, ey sahib-nəzər, məndən nəzər, divaniyəm! .........50
Ölüm həqdəndir, əmma növcəvan ölmək
nə müşküldür ..............................................................................51
Ər libasın geyə hər rənglə zən, mərd olmaz .......................52
Ah-ah, ey çərxi-qəddar, ah, ey bədruzigar! .......................53
Şəhdabi-ləbin sağəri-peymanə tək, ey dust! ......................54
Yanar cismim bu gün atəşlərə canü cigərdən çox .............55
Həbibim, ta səni mən sevmişəm əşraf arasında ................56
Yanan eşq atəşinə qəm yeməz ol nardən artıq ..................57
Ey badi-səba, məndən ol yarə salam eylə ............................58
Şəha, müddət cahanı mən də gəzdim,
dərbədər gördüm ......................................................................59

Söylə canana, səba, halım pərişan oldu, gəl! ......................60
Gəl, ey vəhdət qəzalı, sən bu səhradən nə istərsən? .........61
Yenə naşad könlüm buldu yüz yerdən məlal, ağlar ..........62
Nə müddətdir gözüm rahindədir,
yarım, sən səfa gəldin! ..........................................................63
Yarəb, bu gedən sərvi-sərəfraz kimindir? ...........................64
Novruzi-bahar oldu, cahan tazətər oldu .............................65
Ah kim, gör neylədi bu gərdişi-dövran bu gün! ...............66
Gəl çəkmə cahan qeydini sən, can belə qalmaz ................68
**MÜSİBƏTNAMƏ**
Gəl, könül, bir ibrət al, bu gərdişi-dövranə bax ................70
Vaqiflə müşairə ......................................................................76
Maddeyi-tarixlər ....................................................................99
İzahlar ..................................................................................100
Tarixi və əfsanəvi adlar ........................................................103
Lüğət .....................................................................................109

## XALQ RUHU, XALQ HƏYATI

Bu ağrılı və düşündürücü misra Növrəs İmanındı – «Yaralı gəlmişəm mən bu dünyaya» deyən nakam bir aşığın. Bəlkə də şairliyin, aşiqliyin, aşıqlığın əbədi qanunu budur. Bəlkə də Növrəs İman bu misranı on səkkizinci əsr ədəbiyyatımızın görkəmli nümayəndəsi Molla Vəli Vidadinin ağlar könlünün səsini eşidib yazıb. Bu misranın mahiyyətinə varmaq üçün gərək Vidadini dönə-dönə oxuyasan, sevəsən, sevdirəsən – azərbaycanlı mənəviyyatına, türk şeiriyyatına hesablanmış duyğuyla.

Akademik Nizami Cəfərov çox doğru olaraq yazır: «Vidadi Füzulidən sonra ilk söz ustasıdır ki, dilində bu qədər hüzn var». Lakin bunu xüsusi olaraq qeyd etmək yerinə düşər ki, bu hüzn bəşəri hüzndür, bu dərd bəşəri dərddir. Doktor Cavad Heyətin Vidadi haqqında fikirləri bu baxımdan ədəbiyyatşünaslıqda yenidir: «Vidadi şeirləriylə Azərbaycan ədəbiyyatının kökləşməsinə çalışırdı». Yəni Cavad Heyət demək istəyir ki, Vidadi qoşması, bayatısı, müxəmməsi, gəraylısı adi şeirlər deyil, kökümüzdür, özü də sözümüzün təzə, möhkəm kökündür, mənəviyyatımızı hər cür eroziyalardan qoruyan kökdür».

“Vidadi imanı, dini, Quranı bilən, sevən şair olub. O, yazırdı: «Kim hüsnün kitabın oxumayandır – nə bilir ki, hədis nədir, ayə nə?» Vidadinin şeirlərində qəriblik mövzusu aparıcı xətdir, onun qəribliyi böyük insanın, filosofun, ən nəhayət, əli həmişə Allah ətəyində olan tənha bir könülün qəribliyidir. Onun qəribliyi könülsüzlər içində yaşanan qəriblikdi” ***Barat Vüsal, AYB Qazax bölməsinin rəhbəri***).

XVIII əsr Azərbaycan şeirinin görkəmli nümayəndələrindən biri olan Vidadinin, yaşca özündən cavan olan böyük müasiri və dostu Molla Pənah Vaqiflə bərabər, şeirimizin sadə xalq dilinə yaxınlaşmasında, realist boyalarla zənginləşməsində önəmli xidmətləri olub. Aşıq şeiri biçimlərindən məharətlə istifadə edən Vidadinin əruz vəznində də bir sıra qiymətli qəzəl, müxəmməs, müstəzad və müsəddəsləri var. Onun şeirləri «keçən günü bir-bir xəyal eyləməyin» vasitələrindəndir.

“Ədəbiyyat tariximizdə Molla Pənah Vaqiflə Vidadinin adı həmişə qoşa çəkilir. Vidadinin şeir dili, ifadə vasitələri çox zəngindir. O, bizim görkəmli şairlərimizdəndi, yaradıcılığı həmişə xalqımızın, dövlətimizin diqqətində olub. Xalqımız belə qədirbilənliyi həmişə yüksək qiymətləndirir. Bu, ənənəyə bağlılıqdan irəli gəlir. Vidadiyə qayıdışımız milli dəyərlərimizə, varisliyə olan ehtiram hissindən irəli gəlir. «Vətən» deyib düşünməyin yolu Vidadidən keçir, keçən günlərin əzəli yaşantıları Vidadidə təzə-tərdi, gözəllik qarşısındakı heyranlıq, heyrət həm də Vidadidən qaynaqlanır:

Vidadi xəstənin canın almağa
Xət bir yana, xal bir yana düşübdür.

O, halallığı, doğmalığı və sədaqəti vəsf edir, şair dostuna bu dəyərlərin verdiyi dərsi keçirdi:

Gəl çəkmə cahan qeydini sən can belə qalmaz.
Qan ağlama çox, dideyi-giryan belə qalmaz»

***(Vaqif Bəhməni, şair).***

"Molla Vəli Vidadinin adı XVIII əsr türk xalqları sənətkarları içində Vaqif, Xəstə Qasım, Aşıq Valeh, Nədim, Şeyx Qalib, Fəraqi, Qurdoğlu və başqaları ilə bir yerdə çəkilir. Şübhə yoxdur ki, Vidadinin qoşma və gəraylıları öz dövründə yaranan dastanlarımıza daxil edilib, bu dastanların ətə-cana gəlməsində müstəsna rol oynayıb. Ona görə ki, Vidadinin şeirləri sevgi dastanlarımızdakı qəhrəmanların əhval-ruhiyyəsinə çox yaxındır" (***Ədalət Əsgəroğlu, şair***).

Sultani-cahan olsa, gedər, canə inanma,
Bir gün pozulur, şövkəti-divanə inanma,
Haqq baqi deyil, mülki-Süleymanə inanma,
Gər aqil isən, gərdişi-dövranə inanma…

Vidadi poeziyası həmişə qəlblərə hakimdir və elə bil ki, bu şeirlər XVIII əsrin bir ixtiyar şairinin dilindən

yox, yurd-yuvasından didərgin salınmış, eli yağmalanmış minlərlə soydaşlarımızın könül rübabından səslənir:

Bəxt çöküb, çünki zəmanə dönüb,
Şadi-xürrəm işi fəğanə dönüb,
Ömrünün gülzarı xəzanə dönüb,
Novbaharı gedən bəs ağlamazmı?
Olmaya yanında yarı, cananı,
Puça çıxıb gedə ömri-cavanı,
Günbəgün əksilib şövkəti-şanı,
İxtiyarı gedən bəs ağlamazmı?

Onun yazdıqlarının müasirliyi zamanla, çağdaş həyatla səsləşməyindədi ki, elə bil bax elə bu gün, indicə yazılıb:

Bir baş çəkin dərdiməndin halına,
Ərzə yazsın, qələm alsın əlinə,
Vidadi xəstədən Bağdad elinə
Siz yetirin bir nişanə, durnalar!

Külli-Qarabağ torpaqlarımıza doğru gedən yol üstündə çəkilən bayatı, söylənən ağı kimi səslənir Vidadinin bu sətirləri:

Ərz eyləyim, bu, sözümün sağıdır,
Yollarınız haramıdır, yağıdır,
Şahin-şonqar sürbənizi dağıdır,
Boyanarsız qızıl qana, durnalar!

Necə də adbaad, necə də yerbəyerdi. Bizi klassik və çağdaş Vidadiyə, Vidadi vaqifliyinə qaytaran səbəbin bir ucu da əbədi ağrıyla, dərdlə bağlıdır.

***Sərvaz,***
***"Ədəbiyyat qəzeti"nin şöbə müdiri***

# QOŞMALAR, GƏRAYLILAR, BAYATILAR

## QATAR-QATAR OLUB QALXIB HAVAYA

Qatar-qatar olub qalxıb havaya,
Nə çıxıbsız asimana, durnalar!
Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkana, durnalar?

Təsbih kimi qatarınız düzərsiz,
Havalanıb ərş üzündə süzərsiz,
Gah olur ki, danə-xuriş gəzərsiz,
Gah düşərsiz pərişana, durnalar!

Ərz eyləyim, bu, sözümün sağıdır,
Yollarınız haramıdır, yağıdır,
Şahin-şonqar sürbənizi dağıdır,
Boyanarsız qızıl qana, durnalar!

Əzəl başdan Bəsrə, Bağdad eliniz,
Bəylər üçün ərməğandır teliniz.
Oxuduqca şirin-şirin diliniz
Bağrım olur şana-şana, durnalar.

Bir baş çəkin dərdməndin halına,
Ərzə yazsın, qələm alsın əlinə.
Vidadi xəstədən Bağdad elinə
Siz yetirin bir nişana, durnalar!

## DƏLİ KÖNÜL,
## GƏL ƏYLƏNMƏ QÜRBƏTDƏ

Dəli könül, gəl əylənmə qürbətdə,
Bir gün olur vətən deyib ağlarsan.
Yadlar ilə ömür çürür həsrətdə,
Bir gün olur vətən deyib ağlarsan.

Yaxşı gündə yarü yoldaş çox olur,
Yaman gündə heç bulunmaz, yox olur.
Yad ellərin tənə sözü ox olur,
Bir gün olur vətən deyib ağlarsan.

Mən görmüşəm bu qürbətin dadını,
Yanıb-yanıb çox çəkmişəm odunu.
Qəmlənirsən hər görəndə şadını,
Bir gün olur vətən deyib ağlarsan.

Oxuduqca qəmgin şeiri-qəzəli,
Köhnə yaraların bir-bir təzəli,
Yada düşər keçən günün əzəli,
Bir gün olur vətən deyib ağlarsan.

Yada düşər bağçaların, bağların,
Ala qarlı, boz dumanlı dağların,
Qocalırsan keçər cavan çağların,
Bir gün olur vətən deyib ağlarsan.

Keçən günü bir-bir xəyal eylərsən,
Dolar qəm könlünə məlal eylərsən.
Gələndən-gedəndən sual eylərsən
Bir gün olur vətən deyib ağlarsan.

Hər məzara düşər olsa güzarın,
Yada düşər ata-ana məzarın.
Vidadi xəstə tək artar azarın,
Bir gün olur vətən deyib ağlarsan.

## EY HƏMDƏMİM, GƏL Kİ, GEDƏR CAN DURMAZ

Ey həmdəmim, gəl ki, gedər can durmaz
Sənsiz tutmaz söyləməyə dillər hey.
Kəsilibdir, yoxdur səbrü qərarım,
Bir saətim olub uzun illər hey.

Heç bilmədim dövran necə dolandı,
Yandı cismim atəşlərə qalandı.
Könül şəhri gündən-günə talandı,
İndi oldu bir xərabə çöllər hey.

Həsrətindən əlif qəddim büküldü,
Cismim bəndi yerbəyerdən söküldü,
Gözüm yaşı yol-yol oldu töküldü,
Üzüm üstdən axdı qanlı sellər hey.

Nə şirindir, məhəbbət tək zad olmaz,
Ölənətən könül ondan yad olmaz,
Müddətdir ki, məlul könlüm şad olmaz
Məgər əsməz dost kuyindən yellər hey?

Vidadi xəstəyəm günlər sanaram,
Dərd əhliyəm qəm hərfini qanaram,
Qəriblikdə yada düşər yanaram:
Aşna, yoldaş, yar, müsahib, ellər hey.